# Türkiyə və Azərbaycan arasında təhsil sahəsində əməkdaşlıq genişlənir





## Təhsil naziri Emin Əmrullayev Türkiyədə işgüzar səfərdədir

## Türkiyənin milli təhsil naziri ilə görüş

Martın 16-da təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasına işgüzar səfəri başlayıb.

Səfər çərçivəsində təhsil naziri Emin Əmrullayev Türkiyənin milli təhsil naziri Mahmut Özerlə görüşüb. Görüş zamanı iki ölkə arasında ümumi və peşə təhsili sahəsində əməkdaşlığın cari vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər iki ölkənin ümumi təhsil müəssisələrinin şagirdlərinin qarşılıqlı olaraq səfərlərinin təşviqi haqqında əldə olunmuş razılıq əsasında cari ilin 15-22 mart tarixlərində Azərbaycandan olan 25 şagird və onları müşayiət edən müəllimlərdən ibarət heyətin Türkiyənin Çanakkala şəhərinə səfərindən dolayı məmnun olduqlarını vurğulayıblar.

Qeyd edilib ki, cari ilin may-iyun aylarında isə Türkiyənin ümumi təhsil müəssisələrinin şagird və müəllimlərindən ibarət heyətin Bakıya və işğaldan azad olunmuş ərazilərə səfəri nəzərdə tutulur.



## Azərbaycan-Türkiyə birgə Universiteti barəsində müzakirələr aparılıb

## Türkiyə Respublikası Ali Təhsil Şurasının rəhbəri ilə görüş

Təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasına işgüzar səfəri davam etməkdədir.

Səfər çərçivəsində martın 16-da təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikası Ali Təhsil Şurasının rəhbəri Erol Özvar ilə görüşüb.

Görüş zamanı yaradılması nəzərdə tutulan Azərbaycan-Türkiyə birgə Universiteti barəsində ətraflı müzakirələr aparılıb.



## Azərbaycanlı şagirdlər Çanakkalada

Azərbaycanın ümumi təhsil müəssisələrinin şagirdlərindən və onları müşayiət edən müəllimlərdən ibarət 25 nəfərlik heyət Türkiyənin Çanakkala şəhərinə səfər edib.

15-22 mart 2022-ci il tarixlərini əhatə edən səfərin əsas məqsədi iki ölkənin şagirdləri arasında ünsiyyətin intensivləşdirilməsi və hər iki ölkənin tarixində xüsusi yer alan hadisələrin birgə qeyd olunmasıdır.

Səfər çərçivəsində heyət 16-18 mart tarixləri arasında Çanakkala şəhərində bir neçə rəsmi proqrama qatılacaq və sözügedən şəhərdə yerləşən Troia Antik Şəhəri, Çimenlik Qalası və digər tarixi abidə və Seyit Onbaşı Dostlarının şəhid olduğu Rumeli Məcidiyə, 57-ci alay və digər şəhidlər xiyabanlarını ziyarət edəcəklər. Daha sonra heyət İstanbul şəhərinə doğru hərəkət edəcək və 19-22 mart tarixləri arasında İstanbulda yerləşən Ayasofya məscidi, Çamlıca qülləsi və digər tarixi abidələrdə olacaqlar.